# Şanlı zəfərimizin qalib şəhidi - Ceyhun Səfərov...

**Xalqımızın mərd, igid, yurd qeyrətli Vətən övladlarının misilsiz şücaəti, qanı, canı bahasına 30 ilə yaxın erməni dığaların tapdağına dönən Qarabağımız 44 günə azad edildi. Qazanılan bu şanlı zəfər tariximizə 1995-ci ildə Lerik rayonunun Cənginəvud kəndində anadan olmuş Ceyhun Akif oğlu Səfərovun da adı yazıldı.**



O, Vətəninin şərəfi naminə şəhidlik zirvəsinə ucalmaqla müqəddəs bir ömür yaşadı... Ceyhun Vətəninə, millətinə ilahi bir sevginin qanadlarında yetkinlik yaşına çatır. Orta məktəbi bitirib, Tanrının verdiyi ömrünü mehr, məhəbbətlə bəzəmək üçün xeyirxah əməllərə, gözəl işlərə könül verir. Bir müddət təsərrüfatla məşğul olur. Sevdiyi işdə böyük həvəslə, vəcdlə çalışır. El-obaya fayda verməklə bərabər, ailəsinə də yaxşı qazanc aparır. Günləri maraqlı, mənalı keçsə də, düşmən işğalında qalan Qarabağın taleyinə çox yanır...

Yurdunun torpağına, daşına sevdalı olan Ceyhun 2013-cü ildə Ordu sıralarına gedir. İlk gündən Vətənin keşiyində durmağı özünə şərəf sayır. Əsgərlərə, komandirlərə bildirir ki, yağı düşməndən qisas almamış ürəyim rahatlıq tapmaz. Cəbhə bölgəsində xidmət etdiyi üçün dəfələrlə işğalçı dığalarla üz-üzə gəlir. Hər dəfə də döyüşlərdən alnıaçıq, başıuca çıxır. Xidməti ərzində Ceyhunun Vətən, torpaq sevgisinə hamı əhsən deyir. Həqiqi hərbi xidməti başa vuranda onun cəsurluğu, igidliyi, mərdliyi dillərdə qəhrəmanlıq nəğməsinə dönür.

Doğma kəndinə qayıdan Ceyhun yenidən zəhmət meydanına atılır. Onun halal əməyi, saf əməlləri el-obaya sevinc gətirir. İllərin səfində insanların gözündə ucalan Ceyhun öz xoşbəxtliyini xalqına gərək olmaqda, bir də Qarabağın azadlığında görür. Odur ki, İkinci Qarabağ müharibəsinə könüllü qatılır. Vətənin haqq savaşının birinci günündən əlinə silah alıb, dığalarla döyüşür. Həmişə də odun-alovun içinə qalib gəlmək istəyi ilə atılır. Füzuli, Cəbrayıl, Zəngilan döyüşlərində böyük şücaət göstərir, sözün əsl mənasında dığalara qan qusdurur.

*Zəfər ORUCOĞLU*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

Bakı xəbər 2021.- 6 mart.- S.14.